**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**XANIM İRADİL qızı ƏSƏDOVA**

# AZƏRBAYCAN RESPUBLİKASININ QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI İLƏ ƏLAQƏLƏRİ (2000-2013)

İxtisas: 5503.02 - Vətən tarixi

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2018**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Tarix fakültəsinin Azərbaycan tarixi kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **H.H.SADIQOV**
Tarix üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:**
AMEA-nın müxbir üzvü, professor **M.C.QASIMLI**
Tarix üzrə fəlsəfə doktoru **N.A.MƏMMƏDLİ**

**Aparıcı müəssisə:** **Sumqayıt Dövlət Universitetinin "Azərbaycan və Şərqi Avropa xalqları tarixi" kafedrası**

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 03 mart 2017-ci il tarixli 36 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının " __ " _______2018-ci il tarixli iclasında, saat __ 00-da keçiriləcəkdir.

**Ünvan:** AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____" "__________" 2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**
**tarix üzrə elmlər doktoru, professor** **S.Y.SÜLEYMANOVA**

# I. DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin ortalarında dünya təsərrüfat əlaqələrində regionalizmə tendensiya daha aydın şəkildə özünü göstərməyə başladı. İkinci dünya müharibəsindən sonrakı dövrdə onun güclənməsi ilə faktiki olaraq iqtisadi blokların meydana gəlməsinə aparan regional inteqrasiyanın genişlənməsinin çoxtərəfli münasibətlər sistemi ilə uzlaşması təhlükəsi yaranır. Regionalizm və çoxtərəfli münasibətlər arasında əlaqə bir sıra tədqiqat və müzakirələrin obyektinə çevrilmişdir və bu müzakirələr və tədqiqatlar belə bir nəticənin əldə olunmasına gətirib çıxartdı ki, regional əlaqə mexanizmləri çoxtərəfli münasibətlərin sistemini tamamlaya bilər.

Ümumi sərhəddə malik ticarət axınları və birbaşa xarici investisiyalar iqtisadi inkişaf və qarşılıqlı iqtisadiyyatın artımı üçün güclü alətdir və özəlləşmə sayəsində sahibkarlıq fəaliyyətinin daha çox effektiv olmasında və istehsal həcminin artmasında və uzunmüddətli əlaqələrin qurulmasında şirkətlərə kömək edir. Bununla yanaşı,regional inteqrasiya ölkələrə dünya iqtisadiyyatına daxil olmağa kömək edir.

İqtisadi inteqrasiya prosesi heç də həmişə rəsmi razılaşmalar şəklində formalaşmır, bu həm də bazar qüdrəti və faktorları ilə şərtlənir. Bu, məhsul və xidmətlərin sabit transsərhəd axını vasitəsilə, investisiya fəaliyyətinin genişlənməsi, yeni texnologiyaların tətbiqi, xarici aktivlərə yiyələnmə və ya onlar üzərində nəzarət vasitəsilə özünü göstərir. İqtisadi inteqrasiyaya zəmin yaradan amillər dövlətlərin xüsusilə ticarət və ya xarici investisiya rejimlərinin liberallaşmasına yönələn adekvat siyasəti və praktik fəaliyyəti, maliyyə bazarlarının tənzimlənməsi və daxili bazarda rəqabəti stimullaşdırılması, nəqliyyat və rabitə sisteminin inkişafıdır.

Prinsip etibarilə regional və həmçinin qlobal inteqrasiyanın əsas hərəkət verici qüvvələri eyni amillərdir. Bundan əlavə, regional inteqrasiya ümumi coğrafi və ya mədəni xüsusiyyətləri və qonşu ölkələr arasında əlaqələri əks etdirir və institusional münasibətdə çox vaxt regional inteqrasiya haqqında razılaşma formasını alır. Regional əməkdaşlığın əsasında qonşu dövlətlərin coğrafi yaxınlığı və ümumi maraqları, həmçinin ənənəvi əlaqələrindən irəli gələn obyektiv potensial imtiyazlar dayanır.

XX əsrin 40-cı illərinin sonundan başlayaraq dünyada onlarla müxtəlif sayda ölkələrin iştirakı ilə regional ticari iqtisadi birliklər yaranmışdır ki, onların əməkdaşlığının nəticələri də eyni olmamışdır. Onların içərisində ən uğurlusu əsası 1957-ci il Roma sazişi ilə qoyulmuş Avropa İttifaqının fəaliyyətidir.

Regional inteqrasiya 80-90-cı illərdə daha da fəallaşmışdır.Bu beynəlxalq ticarət sisteminin əsas faktoru və xarici investisiyanın həcminin artım şərtlərindən biridir.

Aktuallıq nöqteyi-nəzərindən bu mərhələdə Azərbaycan respublikası qarşısında duran xarici iqtisadi vəzifələrdən biri Avropa ərazisində regional beynəlxalq iqtisadi təşkilatların fəaliyyətində iştirak etməkdir.

Heydər Əliyev bütün tərəflərin maraqlarının nəzərə alındığı qarşılıqlı faydalı birgə işə yönəldilmiş regional əməkdaşlığın əhəmiyyətini həmişə qeyd edir.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev Azərbaycanın dünya dövlətləri ilə iqtisadi inteqrasiyasının yaranması və genişlənməsini ölkənin beynəlxalq aləmdə tanınması və nüfuzunun artmasında, eyni zamanda daxili iqtisadi inkişafının yüksəlişində mühüm amillərdən biri hesab edirdi.Heydər Əliyev bir çox təşkilatların - NATO-nun, MDB-yə daxil olan ölkələrin dövlər və hökumət başçılarının, İslam Konfransı Təşkilatının Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatı (EKO) çərçivəsində keçirilən zirvə görüşlərində mütəmadi olaraq iştirak edirdi. Bu görüşlərdəki çıxışlarda, dövlət başçıları ilə söhbətlərində Azərbaycanın siyasi və iqtisadi mənafelərinin qorunması,bu təşkilatlar və dövlətlərlə Azərbaycanın əməkdaşlığının və inkişaf probleminin həlli üçün səmərəli istifadə edilməsi üçün şərait yaradılmasına çalışırdı.[1]

Avropada xüsusi regional iqtisadi birliklərdən biri Qara dəniz ölkələrinin ticari iqtisadi əlaqələrinin inkişafı üzrə regional təşəbbüs kimi yaranmış və tədricən regional tipli beynəlxalq iqtisadi təşkilata çevrilən Qara Dəniz İqtisadi Əməkdaşlıqdır. Qara dəniz, Balkan, Cənubi Qafqaz, Aralıq dənizi, Cənubi Rusiya və Ukrayna kimi iri regionların qüvvələrini birləşdirərək həm Avropa, həm də dünya məkanında önəmli yer tutur. Bununla yanaşı, Qara dəniz İqtisadi əməkdaşlıq regionu müxtəlif iqtsadi inkişaf mərhələsində olan ölkələr və müxtəlif iqtisadi sistemlərin birləşdirilməsindən ibarət unikal xarakterə malikdir.

**Tədqiqatın obyekti** Qara Dəniz İqtisadi Əməkdaşlıq İnstitutları və Azərbaycanın bu təşkilatda fəaliyyətidir. Müəllif regional əməkdaşlığın əsasını təşkil edən siyasi və iqtisadi aspektlərə toxunmuşdur. Azərbaycanın Qara dəniz regionunda xarici iqtisadi siyasətinin araşdırılması kontekstində QDİƏT-in iştirakçı ölkələrin ticari-iqtisadi əlaqələri nəzərdən keçirilir.

**Tədqiqatın predmeti.** Azərbaycan - Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı arasında əlaqələrin dinamik inkişafı, onun həyata keçirilmə

[1] Hüseynova İ.M. Müstəqil Azərbaycan Dövlətinin Qurucusu. Bakı, 2004, s. 333.

metodları, formaları, növləri və səciyyəsi, bu əməkdaşlığa siyasi, hüquqi baza yaradan saziş və müqavilələr, sənədlər, birgə qəbul edilmiş bəyanat və bəyannamələr və s-dir.

**Tədqiqatın xronoloji çərçivəsi** 2000-2013-cü illəri əhatə edir. Xronoloji çərçivənin müəyyən edilməsində bir sıra tarixi hadisə və proseslər kompleksi nəzərə alınmışdır. Məlumdur ki, 2000-ci ildə QDİƏT ilə Azərbaycan Respublikası arasında münasibətlər aktiv fəaliyyət dövrünə daxil olmuşdur. Bu səbəbdən xronoloji çərçivənin başlanğıcı 2000-ci il götürülmüşdür. 2013-cü ildə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ikinci prezidentlik dövrü başa çatmışdır. Bu tarix dissertasiyanın xronoloji çərçivəsinin son hüdudu olaraq götürülmüşdür. Mövcud xronoloji çərçivə Azərbaycan Respublikası ilə QDİƏT üzv ölkələri arasında əlaqələri araşdırmağa imkan verir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi yeni regional birliyin - Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında Azərbaycanın iştirakını təhlil etməkdən ibarətdir.

Bu məqsədə nail olmaq üçün tədqiqatın qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

- QDİƏT-in inkişaf mərhələsini nəzərdən keçirmək;
- Regional iqtisadi birliklərin yaradılmasına zəmin yaradan qüvvələri təhlil etmək;
- QDİƏT formalaşması tarixini ümumiləşdirmək və yeni regional təşkilatın sonrakı inkişaf perspektivlərini müəyyən etmək;
- Azərbaycan-QDİƏT arasında qarşılıqlı münasibətlərin yaradılmasını şərtləndirən amilləri müəyyən etmək;
- Azərbaycanın QDİƏT-də iştirakı problemlərini araşdırmaq və bu təşkilatla bağlı onun əsas iqtisadi maraqlarını göstərmək;
- Azərbaycanın QDİƏT-in iqtisadi layihələrinin reallaşmasında işgüzar fəaliyyətinin gücləndirilməsi imkanlarını müəyyən etmək;
- QDİƏT institutundan istifadə etməklə Azərbaycanın ümumavropa iqtisadi məkana inteqrasiya yollarını müəyyən etmək;
- QDİƏT çərçivəsində əsas əməkdaşlıq istiqamətlərinin təhlil etmək və onların potensialını müəyyən etmək.

**Problemin tədqiqi səviyyəsi**. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, Azərbaycan - Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı əlaqələri tarixşünaslıqda tədqiqatın problematikliyi baxımından ayrıca olaraq öyrənilməmişdir. Lakin müstəqil Azərbaycan Respublikasının Ukrayna, Rusiya, Rumıniya, Türkiyə və başqa Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı üzvləri ilə müxtəlif sahələrdə ikitərəfli qarşılıqlı əlaqələr öyrənil-

mişdir. Bu əsərlər arasında N.Məmmədovun məqaləsini[1], H.Ə. Bəxtiyarovun tədqiqat əsərini[2],S.Ə.İmanovanın "Rumıniya-Azərbaycan münasibətləri"[3] və başqalarının tədqiqat işlərini qeyd etmək olar.

Ümumiyyətlə, Azərbaycanın beynəlxalq əlaqələri ilə bağlı da tarixşünaslıqda bir sıra sanballı əsərlər yazılmışdır. Bu müəlliflər içərisində Ə.Həsənov və M.C.Qasımlının tədqiqat işlərini qeyd etmək lazımdır.

Ə.Həsənovun "Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996)" adlı monoqrafiyasında [4] Azərbaycan respublikasının müstəqillik dövründə həyata keçirdiyi xarici siyasət kursunun əsas istiqamətlərindən biri olan Avropa dövlətləri və ABŞ-la diplomtik münasibətlərin, qarşılıqlı əlaqələrin yaradılması və inkişafına yönəlmiş Qərb siyasəti tədqiq edilmişdir. Mövzumuz üçün maraq doğuran əsərdə Azərbaycan respublikasının Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan Avropa dövlətləri ilə əlaqələr haqqında verilən məlumatlardır.

Rusiya və xarici ədəbiyyatda da regional inteqrasiya probleminin öyrənilməsinə həsr olunmuş bir sıra əsərlər mövcuddur. N.K.Arbatova[5], K.A.Semyonov[6], Y.D.Xalivinskaya[7] kimi tədqiqatçılar bu problemə toxunmuş və dəyərli əsərlər yazmışlar.

N.S.Məmmədzadənin [8] müasir mərhələdə Azərbaycan və slavyan dövlətləri arasında qarşılıqlı münasibətlərin siyasi aspektdən araşdırıldığı tədqiqat işində respublikamızın siyasi sahədə Rusiya, Ukrayna, Bolqarıstan ilə əlaqələrinə dair faktik materiallar verilmişdir.

M.C.Qasımovun "Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər)" əsərində[9] müstəqil respublikamızın xarici siyasətinin

---

[1] Məmmədov N. Azərbaycan xarici siyasətinin əsas istiqamətləri haqqında // Azərbaycan Fokus, Bakı, 2010, № 2 (2), s. 17-50.

[2] Bəxtiyarov H.Ə. Azərbaycan-Ukrayna mədəni əlaqələri (XX əsrin 90-cı illəri). Tarix elm.nam.dis. Bakı, 2006, 171 s.

[3] İmanova S.Ə. Rumıniya-Azərbaycan münasibətləri (1991-2011-ci illər). Tarix üzrə fəlsəfə doktoru diss. avtoreferatı. Bakı, 2014.

[4] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005.

[5]Арбатова Н.К. Европейский Союз и региальные конфликты. Москва, 2011.

[6] Семенов К.А.Международная экономическая интеграция. Москва, 2000.

[7] Халивинская Е.Д. Мировая экономика и международные экономические отношения. Москва, 2008.

[8] Мамедзаде Н.С. Взаимоотношения Азербайджанской Республики со славянскими странами в современный период. канд. дисс. пол. наук. Баку, 2006, 166 с.

[9]Qasımov (Qasımlı) M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996; Yenə onun. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, 1997.

prinsipləri, istiqamətləri, beynəlxalq və regional təşkilatlarda QDİƏT-də iştirakı məsələləri, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması sahəsində fəaliyyəti tədqiq edilmişdir.

**Tədqiqatın mənbə bazası.** Dissertasiya işi yazılarkən Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin rəsmi fəaliyyəti ilə bağlı materiallar əsas yer tutur. Məlumdur ki, Azərbaycanın QDİƏT-lə qarşılıqlı əlaqələrinin inkişafında Heydər Əliyevin əvəzsiz xidməti olmuşdur. 2003-cü ildə Azərbaycan respublikasının Prezidenti seçilən İlham Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən biri bu təşkilatla bərabərhüquqlu əməkdaşlığın inkişaf etdirilməsi və bu zaman Azrbaycanın maraqlaırnın qorunmasına yönəlmişdi. Bu səbəbdən İlham Əliyevin çıxışları, bəyanatları vacib mənbələr sırasındadır. Bundan əlavə, İqtisadi İnkişaf Nazirliyinin Beynəlxalq Əlaqələr Şöbəsinin Arxivi, Azərbaycan Milli Məclisinin Arxivi, beynəlxalq və regional təşkilatların müxtəlif sahələrlə bağlı konvensiyaları, Azərbaycan və QDİƏT-üzv ölkələri və bu təşkilatla bağlı ölkələr, hökumət və müvafiq nazirliklər arasında bağlanmış ikitərəfli müqavilə və sazişlər, birgə imzalanmış bəyanat və bəyannamələr, bu ölkələr arasında imzalanmış müqavilə, saziş və protokollar, qəbul edilən qərar və qətnamələr, layihələr, iqtisadiyyata dair qanunvericilik aktları, qərar və sərəncamlar, dövlət və hökümət başçılarının nitqləri, çıxışları, məruzələri və s. mənbə kimi istifadə olunmuşdur.

Dissertasiya işi yazılarkən internet resurslarından da mənbə kimi istifadə olunmuşdur.

**Tədqiqatın metodoloji əsasları.** Dissertasiya işində qarşıya qoyduğumuz məsələləri tədqiq edərkən müqayisəli, nəzəri yanaşma metodu əsas götürülmüşdür. Eyni zamanda obyektivlik, tarixi hadisələrə kompleks yanaşma və sistemlilik prinsipləri, bütün mənbə və ədəbiyyatın müqayisəli şəkildə araşdırılmasına söykənən obyektiv tarixi tədqiqat metoduna əsaslanmışdır. İş problemləri üzrə xronoloji ardıcıllıqla yazılmışdır.

**Tədqiqat işinin elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi konkret olaraq aşağıdakıları özündə ehtiva edir:

- İlk dəfə olaraq Azərbaycan-Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı əlaqələri 2000-2013-cü illərdə zəngin mənbə və ədəbiyyat əsasında xronoloji ardıcıllıqla və problemlər üzrə ayrı-ayrılıqda tədqiq olunmuş, bu əlaqələrin konkret faktları geniş kompleks analiz müstəvisinə çıxarılmış, sistemləşdirilmiş, ümumiləşdirilmiş və onların nəticələri müəyyənləşdirilmişdir;

- əlaqələri şərtləndirən amillər üzə çıxarılmış, onların siyasi-hüquqi əsasları tutarlı fakt və arqumentlərlə göstərilmişdir;

- Azərbaycan - Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı arasında əlaqələrin istiqamətləri, onların reallaşdırılması vasitələri, yolları və formaları hərtərəfli araşdırılmışdır.

- Azərbaycan - Qara Dəniz İqtisadi Əməkdaşlıq arasında əlaqələrin inkişafına mane olan amillər müəyyənləşdirilmiş, onların nizamlanması yollarına aydınlıq gətirilmişdir.

- elmi dövriyyəyə tədqiqat mövzusu ilə bağlı çox sayda yeni sənəd və material, o cümlədən xaricdə nəşr olunmuş ədəbiyyat daxildir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işimin əsas müddəaları və nəticələrindən istifadə oluna bilər:

-Dərslik və dərs vəsaitlərinin hazırlanmasında;

-Azərbaycanın diplomatiya tarixinə və müasir beynəlxalq mədəni əlaqələrinə dair ümumiləşdirilmiş kitablarının yazılmasında;

-Azərbaycan - Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin arasında münasibətlərin müxtəlif tərəflərinə dair gələcək elmi-tədqiqat işlərinin araşdırılmasında;

-Vətən tarixi və beynəlxalq münasibətlər tarixinə dair ümumiləşdirilmiş əsərlərin yazılmasında;

-Ali təhsil müəssisələrində mühazirələrin oxunmasında və seminar məşğələlərinin keçirilməsində.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin məqalələri, tezis, konfrans materiallarında öz əksini tapmışdır. Mövzu ilə bağlı dissertantın Azərbaycanda və xaricdə çap olunan elmi jurnallarda məqalə və konfrans materialları çap edilmişdir. Çap olunmuş məqalə və konfrans materialları işin bütün fəsillərini və ümumi məzmununu əhatə edir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II.DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı və xronoloji çərçivəsi əsaslandırılmış, problemin öyrənilmə vəziyyəti araşdırılmış, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilmiş, mənbə bazasının icmalı verilmiş, tədqiqatın elmi yenilikləri və nəzəri və praktik əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın birinci fəsli "**Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaranma tarixi**" adlı birinci fəsli dörd yarımfəsildən ibarətdir. "**Qara dəniz regionunda əməkdaşlığın inkişaf konsepsiyası"** adlanan birinci yarımfəsildə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaranmasını şərtləndirən amillər və bu təşkilatın tərkibinə daxil olan dövlətlər haqqında məlumat verilir.

QDİƏT-in yaranmasına 25 iyun 1992-ci ildə İstanbulda Qara dəniz regionunun 11 dövlət (Azərbaycan, Türkiyə, Bolqarıstan, Gürcüstan, Moldova, Ermənistan, Rusiya, Rumunya, Yunanıstan, Ukrayna) və hökümət başçısı tərəfindən imzalanmış "Qara Dəniz İqtisadi Əməkdaşlıq haqqında Bəyannamə" zəmin yaratdı [1] və bu prosesin başlanğıcı oldu. Bəyannamədə Qara dəniz ölkələri arasında belə iqtisadi əməkdaşlığın inkişafına dair əsas konseptual yanaşmalar müəyyən edildi.

Qara dəniz ölkələrinin regional əməkdaşlığı ümumi Avropa və dünyəvi proseslərdə sıx əlaqələrdə və qarşılıqlı təsir zəminində nəzərdən keçirilir. Qara Dəniz İqtisadi Əməkdaşlıq konsepsiyasını yaradan ölkələr iqtisadi əməkdaşlığı inkişaf etdirmək niyyətində olduqlarını bəyan etdilər və bununla da Avropa İqtisadi məkanın formalaşmasına və Qara dəniz ölkələrinin dünya iqtisadiyyatına tam inteqrasiyasına nail olmasında böyük töhfələr verəcəklərini bildirdilər.

Qara dəniz İqtisadi Əməkdaşlıq bəyannaməsi ilə eyni vaxtda qəbul edilmiş Bosfor bəyannaməsində sazişin iştirakçıları olan ölkələr bəyan etdilər ki, Qara dəniz təşəbbüsü, bu regionun ölkələri və xalqları yeni Avropa arxitekturasının yaradılmasına böyük töhfə verməlidirlər və səylər Avropa inteqrasiya strukturunun yaradılması və proseslərin inkişafına təsir göstərməlidir.[2]

30 iyun 1995-ci idə Buxarestdə yüksək səviyyədə baş tutan görüşün iştirakçıları tərəfindən qəbul olunmuş bəyannamə QDİƏT-in konseptual

---

[1]The Summit Declaration of the Black Sea Economic Cooperation Istanbul, 25 June 1992, BSEC Handbook of Document, Vol. I.

[2]Agreement Establishing the Black Sea Trade Development Bank – BSEC Handbook of Document, vol. 1, p.475-476.

əsaslarını tamamladı. Birliyin iştirakçı ölkələri bəyannamədə QDİƏT-in bazar iqtisadiyyatına keçid prosesi ilə şərtlənən çətinlikləri dəf etmək üçün yaradılmış vasitə kimi başa düşdüklərini qeyd etdilər

Bir sıra amillər QDİƏT-in seçdiyi təhlükəsizliyin təminatı modelinin yararlı olmasını müəyyən edir:

- Keçid iqtisadiyyat mərhələsində olan ölkələrin səciyyəvi şərtləri və tələbatlarını xüsusi seçməklə iştirakçı ölkələrin köklü iqtisadi maraqlarının nəzərə alınmasını nəzərdə tutan praqmatik yanaşma;

- İqtisadiyyatın mühüm sahələrində əməkdaşlığın konkret layihələrinin işlənib hazırlanmasına yönəlmə. Bura nəqliyyat, əlaqələr, energetika, ticarət, kənd təsərrüfatı, turizm, ətraf mühitin qorunması aiddir. Bütün bunların həyata keçirilməsi prosesinə dövlət orqanları ilə yanaşı, sahibkar dairələr də cəlb olunur;

- İqtisadiyyat sahəsində subregional səviyyədə əməkdaşlıq layihələrinin reallaşdırılmasına imkan verə biləcək ikitərəfli və çoxtərəfli əlaqələrin inkişafı;

- əməkdaşlıq proqramlarına cəlb olunan institutların müxtəlifliyi: hökumət, parlamentlər, özəl sektor, yerli hökumət, maliyyə müəssisələri, elmi birliklər, qeyri-hökumət təşkilatları və s.

- QDİƏT-in Avropa mühitinə və bütün dünyaya açıq olması. Iqtisadi əməkdaşlıq regionda iştirakçı-ölkələrin üçüncü tərəflərlə əlaqələrinin inkişafına və digər regional qruplaşmalar və təşəbbüslərlə əməkdaşlığa nəinki mane olmur, hətta kömək də edir və bunun üçün bütün şəraiti yaradır.

QDİƏT çərçivəsində təhlükəsizliyin təmin olunması modelinin praktik tətbiq edilməsinə nümunə Azərbaycan, Gürcüstan və Türkiyənin prezidentlərinin Cənubi Qafqazda enerji dəhlizinin paralel yaradılması və təhükəsizlik dəhlizinin formalaşdırılması ilə bağlı 26 aprel 1998-ci il Trabzonda keçirilən görüşdə qəbul etdikləri qərar oldu.[1]

Birinci fəslin "**Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının strukturu**" adlanan ikinci yarımfəslində bu təşkilatın struktur xüsusiyyətləri araşdırılır.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı dövlətlərarası struktur kimi formalaşmışdır ki, bu da təşkilatın əsas məqsədlərindən birini müəyyən edir – dövətlərarası əməkdaşlığı hökumət səviyyəsində formalaşdırma. Bu vəziyyət bir sıra faktorlarla şərtlənir ki, onlar da QDİƏT-in səciyyəsini

[1]Ливенцев А.Н. Международные экономические отношения. М., Проспект, 2006 с.84-85.

regional struktur və Qara dəniz regionunun siyasi-iqtisadi sisteminin xüsusiyyətlərindən birbaşa irəli gələn təşkilat kimi əks etdirilir.

Birincisi, onu qeyd etmək lazımdır ki, başlanğıc mərhələdə QDİƏT-in yaradılmasında aparıcı rolu iqtisadi deyil, siyasi motivlər, sovet yenidənqurması dövrünün "yeni düşüncə" ideologiyası oynayırdı. İlk olaraq sovet-türk layihəsi kimi yaranmış QDİƏ-ideyası dəmir divarın aradan qaldırılması üçün nümunə olmalı idi və buna görə də sonralar iştirakçı ölkələrin xarici siyasi bilikləri dövlətlərarası qarşılıqlı fəaliyyət mexanizmini müəyyən edən ünsürə çevrildi.

İkincisi, QDİƏ Təşkilatının üzvü olan ölkələrin çoxu SSRİ-nin dağılması nəticəsində meydana gəlmiş və SSRİ-nin iqtisadi cəhətdən vahid xalq təsərrüfatı kompleksinin tərtib elementləri olan dövlətlərdir. Bu əməkdaşlığın planlı başlanğıc və dövlət mexanizmlərinin üstün olmasını müəyyən etdi, belə ki, bir variant özəl sektorun inkişaf etmədiyi və ona adekvat əməkdaşlığın bazar mexanizminin olmaması şərtləri altında QDİƏ təşkilatının yaradılması zamanı yeganə mümkün variant idi.

QDİƏT-in hökumətlərarası ölçüləri daha yüksək səviyyəli institut tərəfindən qərarların təsdiq olunması mexanizmi vasitəsilə subordinasiya edilən işçi orqanların nisbətən inkişaf etmiş sistemi vasitəsilə reallaşır.

Hökumətlərarası işçi orqanların müasir sistemi aşağıdakıları əhatə edir. QDİƏ-in iştirakçı-ölkələrinin xarici işlər nazirlərinin görüşü; köməkçi orqanların (işçi qrupların) məcmusu; QDİƏT-in himayəsi altında işləyən regional mərkəzlər.

Xarici İşlər Nazirlərinin görüşlərini latın əlifbasına uyğun olaraq hər yarım ildən bir keçirilən QDİƏT-də sədrliyin rotasiyası ilə müəyyən olunur. Sədrlik edən ölkənin Xarici İşlər Naziri QDİƏ çərçivəsində yerinə yetirilən bütün fəaliyyəti əlaqələndirir, prosedura qaydalarına riayət olunmasını, həmçinin qəbul edilmiş qərarların həyata keçirilməsini təmin edir.

QDİƏT-də Xarici İşlər Nazirlərinin görüşünün hazırlanması iştirakçı-ölkələrin Xarici Işlər Nazirliyini təqdim edən və onların rəhbərlərinin adından fəaliyyət göstərən yüksək vəzifəli şəxslərin öhdəsinə verilir.

İcraçı oqranların – işçi qrupların strukturu hər şeydən əvvəl QDİƏT-in iştirakçı ökələrində dövlət idarə etmə orqanlarının strukturunu əks etdirir.

İşçi qruplar iki qrupa bölünür: daimi işçi qrupların səlahiyyət və vəzifələri Xarici İşlər Nazirlərinin görüşləri ilə təsdiq olunur. Xüsusi işçi qrupları xüsusi vəzifə və tapşırıqların həll olunması üçün daimi işçi qrupların fəaliyyəti çərçivəsində yaranır.

Qara dəniz əməkdaşlığının vəzifələrinin yerinə yetirilməsinə yardım etmək və onun hüquqi əsasını təmin etmək üçün 1993-cü ildə Qara dəniz İqtisadi Əməkdaşlığının Parlament Assambleyası yaradırlar. Həmin ilin iyun ayında İstanbulda baş tutan ilk sessiyada QDİƏ Parlament Assambleyasının Reqlamenti qəbul edildi və onun işçi orqanları yaradıldı. Assambleyanın tam hüquqlu üzvləri QDİƏ-nin on bir dövləti oldu.[1]

Birinci fəslin "**QDİƏT çərçivəsində dövlətlərarası əməkdaşlığa təsir göstərən amillər**" adlı üçüncü yarımfəsli bu təşkilata daxil olan ölkələr arasındakı əlaqələrin araşdırılmasına həsr olunmuşdur.

QDİƏT çərçivəsində ticari-iqtisadi əlaqələrin inkişafı nöqteyi-nəzərindən QDİƏT fəaliyyət mexanizminin ən mühüm tərkib hissəsi iştirakçı-ölkələrin sahibkar strukturları arasında qarşılıqlı fəaliyyəti gücləndirmək məqsədilə 1992-ci ilin iyun ayında QDİƏT-in İşgüzar Şurası yaradıldı - regionda sahibkar təşəbbüslərin koordinasiyası, əməkdaşlığın ideya və layihələrini reallaşdıran orqan. İşgüzar Şura QDİƏT-də müşahidəçi statusu ilə möhkəmləndi.

Qara Dəniz İqtisadi Əməkdaşlıq üzrə Rusiya milli komitəsinin statusu hökumətin Rusiya Federasiyasının Qara dəniz iqtisadi əməkdaşlığında iştirakının təmin edilməsi 26 aprel 1997-ci il qərarı ilə (N. 500) təsdiqlədi.[2]

Rusiya milli komitənin qeyd edilən məqsədlərinin reallaşdırılması üçün QDİƏT çərçivəsində təqdim olunan Rusiya proyektlərinin monitorinq və analiz mərkəzi (onun strukturunda) yaradılması haqqında məsələ işlənilir.[3]

Birinci fəslin "**QDİƏT-in regionun iqtisadi inkişafında rolu**"adlı dördüncü yarımfəslində bu təşkilatın Qara dəniz regionunun iqtisadi inkişafına təsiri araşdırılır.

QDİƏT-nin iştirakçı-ölkələri əvvəlcə iqtisadi fəaliyyət sektorlarının geniş diapozonunda əməkdaşlığın inkişafını vəzifə kimi qarşılarına qoymuşdular. 1992-ci il dövlət başçılarının görüşündə çıxarılan Bəyannamədə iqtisadiyyat sahəsində, o cümlədən ticarət və sənaye sahəsində, nəqliyyat, energetika, elm, texnologiya və investisiya sahəsində əməkdaşlığı nəzərdə tuturdu. (1992-ci il Bəyannaməsi, paraqraf 13)

QDİƏT qarşısında duran ən mühüm vəzifələrdən biri investisiya rejimini tənzimləyən qanunvericiliyin vəziyyətinə görə ölkənin və ya

---

[1] Борисенко Е.Н., Шевченко И.В., Евдокимов С.М. Черноморскон экономическое сотрудничество (состояние и перспективы). Краснодар: Советская Кубань, 2000, с. 42.
[2] Black Sea Economic Cooperation.Handbook of documents, vol 3.1998, BSEC.
[3] Анашкина И.А. Правовой режим территориального моря на примере законодательства ряд государств Балтийского и Черноморского регионов. // Московский журнал международного права. 2001. №2, 21.

regional birliyin iqtisadiyyatının inkişaf dərəcəsi haqqında mülahizə irəli sürmək olar. Bu mərhələdə xarici investisiya rejimini tənzimləyən iştirakçı-ölkələrin qanunvericiliklərinin unifikasiyası həyata keçirilir. Əməkdaşlıq üçün əsas QDİƏT çərçivəsində hazırlanan investisiya prinsipləridir.

Yaxşı formalaşmış ticari əlaqələr olmadan istənilən regional təşkilatın daxilində iqtisadi münasibətlərin tam inkişafını təsəvvür etmək mümkün deyil. Buna görə ticari əlaqələrin genişləndirilməsi QDİƏT fəaliyyətində prioritet vəzifələrdən biridir. QDİƏT dövlətləri QDİƏT-in azad ticarət zonasının yaradılması üzrə ambisiyalı layihənin reallaşmasına böyük ümidlər bəsləyirlər.

Beləliklə, nəqliyyat sahəsində QDİƏT-in ölkələrinin səyləri transavropa magistralı və Yaxın və Orta Şərq ölkələrinə çıxışla Qara dəniz ətrafında nəqliyyat halqasının yaradılması üzrə iri masştablı beynəlxalq layhələrin reallaşmasına yönəlmişdir. Elmi-texniki əməkdaşlığın inkişafında böyük potensial vardır.

QDİƏT-in təsisçi ölkələri 80-ci illərin sonu 90-cı illərin əvvəllərində praktiki olaraq bütün postsovet və postkommunist ölkələrində baş verən iqtisadi transformasiya dövrünün çətinlikləri, istehsalın kəskin düşməsi, daxili maliyyə mənbələrinin minimuma qədər endirilməsi nəticəsində investisiya resurslarının çatışmazlığını nəzərə alırlar.[1]

Ümumilikdə, regionda investisiya situasiyası aşağıdakı şəkildə görünür: Qara dəniz regionu ölkələrinin iqtisadiyyatına birbaşa xarici investisiyanın ümumi həcmi son dərəcə aşağı olaraq qalır və əhaliyə 5 dollardan (minimal göstərici) 85 dollara qədər (maksimal göstərici) təşkil edir. Ümumilikdə, ümumi əhalisi 320 milyon olan QDİƏT iştirakçı ölkələrində xarici investisiyanın həcmi 19 milyon əhalisi olan Malayziyanın iqtisadiyyatına qoyulan investisiyanın həcmi ilə müqayisə edilə bilər.[2]

1997-ci ilin əvvəlinə qədər xarici investorların tərcih reytinqi aşağıdakı şəkildə görünürdü: ticarət, nəqliyyat, turizm. Eyni zamanda QDİƏT-nin bəzi iştirakçı ölkələrində emal sənayesinin payı (birbaşa xarici investisiyanın ümumi həcmdə) yüksəkdir, bu xüsusilə Azərbaycana (ümumi həcmin 75 faizi), Rusiyaya (61%), Ukraynada (58%) aiddir.[3]

---

[1]Горменина Е. Экономическая развития региона: приоритеты, механизмы, модели. Тверь,1999.

[2]Мировая экономика. Экономика зарубежных стран. М.,Флинта, 2000, с.183

[3]Долинский С. Нефть и Черное море. Электронный ресурс. // Портал идательства порты Украины. URL:htpp://www/blackseatrans.cjm/pu/2003-6/28.phtml (датаобращения: 18.01.2011).

Qara Dəniz Ticarət Inkişaf Bankının üzvləri QDİƏT iştirakçı-ölkələri (bilavasitə və ya onlar tərəfindən təyin olunan nümayəndələri vasitəsilə) həm də başqa banklar və maliyyə institutları ola bilər.

Qara dəniz bankının istifadə etdiyi və işlətdiyi vəsaitlər adi və xüsusi olmaq etibarilə iki qrupa bölünür. Adi vəsaitlər saziş vasitəsilə müəyyən olunmuş qayda iştirakçı-ölkələr tərəfindən aksiyaların alınması və qaytarılmış kreditlərin məbləği hesabına formalaşan bank kapitalını əhatə edir. Xüsusi vəsaitlər bir və ya bir neçə ölkə tərəfindən, həmçinin digər donorlar tərəfindən yaradılmış fondlardan daxil olan vəsaitlər hesabına formalaşır. Belə fondların yaradılma mexanizmi başqa mənbələrdən də maliyyə resurslarını cəlb etmək imkanı yaradır.

Dissertasiyanın ikinci fəsli "**QDİƏT-in fəaliyyətində Azərbaycanın rolu**" adlanır və bu fəsil iki yarımfəsildən ibarətdir. İkinci fəslin "**Qafqazın enerji resurslarının regional inteqrasiyanın inkişafına təsiri**" adlanan birinci yarımfəsli Qafqazın enerji resurslarının regional inteqrasiyanın inkışafında rolunun araşdırılmasına həsr olunmuşdur. Xəzər nefti üzərində həm regional, həm də qeyri-regional dövlətlər tərəfindən yaranmış rəqabəti anlamaq üçün ilk növbədə bu geniş ərazinin beynəlxalq münasibətlər sistemində əhəmiyyətini müəyyən etmək lazımdır. Bu ərazinin geosiyasətinin araşdırmasının mürəkkəbliyi əsas etibarilə ondadır ki, region vahid geosiyasi məkan deyil. Xəzər dənizi faktiki olaraq onu iki müstəqil alt sistemə bölür - qərb və şərq. Mərkəzi Asiyanın sahilyanı subregionu və dənizə yaxın olan Qafqaz regionu şimalda regionun nisbi bütövlüyünü Rusiyanın kontinental kütləsi və dənizin hər iki tərəfində Moskvadan çıxan geosiyasi mehvər, cənubda - İranın sahilyanı vilayətləri təmin edir. Şimal-cənub mehvəri Xəzər dənizi boyunca onun geosiyasi məkanının kəsilmə xəttidir.[1]

Qafqazın və Mərkəzi Asiyanın geosiyasi vəziyyəti eyni deyil. Qafqaz bütöv geosiyasi durum deyil. Qərbdə o, Qara və Aralıq dənizləri, şərqdə Xəzər dənizi ilə məhdudlaşır. Böyük Qafqaz enişləri faktiki olaraq onun ərazisini subregionlara bölür. Xəzər dənizinə yaxınlaşanları xəzərsahili regionun tərkibinə, Qara dənizə yaxınlaşanları isə Qara dəniz regionunun tərkibində daxil etmək qəbul olunmuşdur. Territorial bölünmə -qaradəniz Xəzər region-terminində öz əksini tapmışdır.[2]

---

[1] Нурани, Нефтепровод для Каспийской нефти: «Момент истины» для народов Прикаспийского региона и Кавказа, 65-69, Центральная Азия и Кавказ, 1, 1998, с.66

[2] Мамедов Р., Формирование международно-правового статуса Каспийского моря в постсоветский период, Центральная Азия и Кавказ, 80-92, 2(14), 2001, с.72

Xəzər dənizi şərqdə Qafqazın, qərbdə Mərkəzi Asiyanın təbii sərhəddidir. Sahili vilayətlər daxili periferiya məkanları statusuna malikdir. Bu onunla izah olunur ki, Mərkəzi Asiya ölkələrinin dünya kommunikasiya magistrallarına çıxışı yalnız Xəzər ətrafı quru transport dənizləri ilə təmin olunur. Qafqaz dövlətləri belə çıxışı Qara dəniz vasitəsilə əldə edir. İnkişaf etmiş dəniz donanmasının və müasir sahilyanı infrastrukturun olmaması Xəzər dənizinin qarşı sahillərində yerləşən ölkələrin inteqrasiyasına mane olur.

Qüdrətli dövlətlərin regionda qısa müddətli və orta müddətli tapşırıqlara nail olmaq üçün həm regional, həm də qeyri-regional dövlətlərdən təşkil olunmuş müvəqqəti koalisiyaların yaradılmasına çalışırlar. Koalisiyaların tərkibi dəyişə bilər, onların gələcəyi ilk növbədə regionun aparıcı geosiyasi mərkəzlərin rəqabətlərində tutacağı yerdən asılıdır.[1]

Bir çox tədiqiqatçılar hesab edirlər ki, regionda siyasi situasiyanı türk faktoru müəyyən edir. Həqiqətən də, Xəzər dənizi perimetri boyunca yaşayan azərbaycanlılar Azərbaycan və İranda türkmənlər, Türkmənistan və Iranda kazaxlar, Kazaxıstanda və Rusiyanın Xəzərsahili vilayətlərində kumık və noqaylar Rusiyada özlərini türk etnosuna aid edirlər. Bu şübhəsiz mühüm bir faktordur, lakin onu da qəbul etmək lazımdır ki, təkcə özünü türk etnosuna aid etmək siyasi birlik üçün yetərli deyil. Qeyd etmək lazımdır ki, türklərin siyasi əməkdaşlıq məsələsi separatizm probleminə toxunur. Rusiyanın cənub regionlarında türk etnoslarının separatizmi protürk və proatlant alyansında türk siyasi birliklərin birləşməsinə mane olmağı özünün strateji vəzifəsi hesab edən Kremli narahat edir. Uyğun separatizm problemi Çinin Mərkəzi Asiya ölkələri ilə münasibətlərində əsas yeri tutur. Iranda Türkmən və azərbaycan milli hərəkatı da vəziyyətin potensial destabilizatorlarıdır.[2]

Xəzər neftinin strateji əhəmiyyətini dörd faktor qrupuna bağlamaq olar: Birinci qrupa onun əldə olunması, satışı və daşınmasında gəliri əhatə edən sırf iqtisadi məsələləri aid etmək olar; ikinci qrupa nəzərdə tutulan siyasi dividentlər aiddir. Üçüncü qrup hərbi-strateji üstünlüyü əhatə edir. Dördüncü qrupa geoiqtisadi faktorlar aiddir. [3]

---

[1] Нурша Аскар. Прикаспийский регион: стратегическое значение пространства и нефти. Центральная Азия и Кавказ, 71-78, 2(14), 2001, с.74.

[2] Нурани, Нефтепровод для Каспийской нефти: «Момент истины» для народов Прикаспийского региона и Кавказа, 65-69, Центральная Азия и Кавказ, 1, 1998, с.67.

[3]Мамедов Р., Формирование международно-правового статуса Каспийского моря в постсоветский период, Центральная Азия и Кавказ, 80-92, 2(14), 2001, с. 73.

“The 1996 International Petroleum Encyclopedia” nüfuzla nəşrinin məlumatlarına görə, dünyada sübut edilmiş neft ehtiyatlarının ümumi həcmini 1095,7 milyard barel təşkil edir. Onlardan Yaxın Şərq ölkələrinə 654 milyard barel və dünya ehtiyatının 54%-i düşür. Xəzər regionu ölkələrinə sübut edilmiş ehtiyatların 29 milyard bareli və ya 2,6% düşür. Müqayisə üçün deyək ki, Rusiya neftinin payı 136,5 milyard barel və ya 12,5%-dir.[1]

Beləliklə, müxtəlif məlumatlara görə, Xəzəryanı regionun hər bir dövləti xüsusi komitetin yaradılmasını təklif etdilər. Belə bir təklif əvvəlki konfransların gedişində açıq-aydın uğursuzluqlar, bəzi sahilyanı dövlətlərin düşünülmüş mövqelərinin olmamasından irəli gəlirdi. [2] Azərbaycan nümayəndələri Qazaxıstanın Xarici Işlər Nazirliyinin rəhbərliyi və İranın Xarici İşlər Nazirinin müavini A.Maleki ilə ikitərəfli ilkin məsləhətləşmə zamanı müsahibləri hansısa sərt strukturun yaradılmasının məqsədəuyğun olmadığına inandırdılar və dənizin hüquqi statusunun müəyyən olunması üzrə daimi ekspertlərdən ibarət işçi qrupunun təşkil edilməsinə razılıqlarını aldılar.[3]

İkinci fəslin ikinci yarımfəsli “**QDİƏT çərçivəsində Azərbaycanın beynəlxalq əlaqələri**” adlanır və burada Azərbaycanın QDİƏT çərçivəsində digər ölkələr və qurumlarla əlaqələri araşdırılır.

Azərbaycan Respublikası 1992-ci ildən QDİƏT-in üzvüdür. Azərbaycanın QDİƏT-də və onun layihələrində iştirakının əhəmiyyəti əsas etibarilə, aşağıdakı amillərlə şərtlənir. Azərbaycan təşkilatın əhatə etdiyi Qara dəniz regionunda ölkəmizin xüsusi çəkiyə malik olduğunu təsdiq etmək və möhkəmləndirmək niyyətindədir. Təşkilatda respublikamızın fəallığı Avropaya inteqrasiya siyasətini bütün ölçülərdə həyat keçirməyi töhfə verməyi nəzərdə tutur. QDİƏT-də iştirakla Azərbaycan regiona proqressiv qurucu münasibəti bəslədiyini göstərir, Qara dəniz bölgəsindən nəqli ehtiva edən neft strategiyasının davamlığına təsir edir və ölkənin tranzit potensialını gücləndirir. Bunlarla yanaşı, QDİƏT Azərbaycanın regionun aparıcı dövlətləri ilə çoxtərəfli tərəfdaşlıq mexanizmini qurması və inkişaf etdirməsi üçün uyğun platformadır. QDİƏT-in formatı Azərbaycanın regional lider kimi potensialının həyata keçirilməsi üçün münasib şərait yaradır və hazırda ölkəmizin QDİƏT çərçivəsində regional əməkdaşlıqda mövqeyinin güclənməsi təmaülü müşahidə olunmaqadadır.

---

[1]Мамедов Р., Формирование международно-правового статуса Каспийского моря в постсоветский период, Центральная Азия и Кавказ, 80-92, 2(14), 2001, с.75.
[2]Məmmədov R. Göst. əsər, s.83-84.
[3]Yenə orada, s.84.

Belə ki, Azərbaycan QDİƏT çərçivəsində bir sıra layihələrdə iştirak edir, bəzi ideya və layihələrin təşəbbüskarlarından biri kimi çıxış edir.

11 sentyabr 2001-ci ildə baş verən faciəli hadisədən sonra təhlükəsizlik və təhlükəsiz münasibətlər anlayışı dəyişdi və bu öz növbəsində beynəlxalq münasibətlərə təsirini göstərdi. Avrasiya məkanında yeni təhlükəsiz mühitin yaradılması zərurəti Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin xarici siyasətində müəyyən dəyişikliklərin edilməsini şərtləndirirdi. 11 sentyabr hadisələrindən sonra dünyada baş verən dəyişik-liklər bu ölkələri regional sabitliklə bağlı ənənəvi münasibəti yenidən nəzərdən keçirməyə vadar etdi. Bu kontekstdə regional əməkdaşlıq Qara dəniz ölkələri üçün əsas elementə çevrilir. Bu strateji regionda baş verən hadisələr xüsusilə Avropa Birliyi və NATO kimi beynəlxalq təşkilatlara marağın və meylin daha da artdığını göstərir. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlər, öz problemlərinin çox olmasına baxmayaraq, Avropa Birliyinin regionun inkişafında fəal iştirak etməyini istəyirdilər. Qara dəniz ölkələri Avopaya inteqrasiya etmə prosesinə qoşulur.

Bu kontekstdə Qara dəniz regionu Avropanın ən böyük nəqliyyat və enerji dəhlizinə çevrilir. Təbii ehtiyatlarla zəngin olan və tarixi İpək yolunun mərkəzində yerləşən Azərbaycan Qərblə Şərq arasında strateji bölgədə yer alır. Neft ixracatçısı kimi Azərbaycan Avropa bazarları üçün nəzərdə tutulmuş Xəzər neftinin daşınmasında açar ölkə kimi çıxış edir. Bununla bərabər, Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması Azərbaycanda daxili sabitlik və milli təhlükəsizlik üçün ciddi təhlükə olaraq qalır.

Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycan müstəqil dövlət kimi bütün sferalarda inkişaf etməyə başladı. Əhalisinin əksəriyyəti müsəlman olan bir dövlət kimi Azərbaycan İslam dünyası ölkələri ilə sıx əlaqələr qurmağa nail oldu, lakin bununla bərabər ölkəmizin xristian dövlətləri ilə də əlaqələri çox yaxşı inkişaf edir. Qərb və Şərq arasında yer alan Azərbaycan hər iki mədəniyyətin bütün yaxşı elementlərini özündə cəmləşdirir.

Azərbaycan bir çox problemləri olmasına baxmayaraq üç əsas amilə görə postsovet ölkələri içərisində fərqlənir. Bunlardan birincisi zəngin enerji resurlarına malik olmasıdır, ikincisi, Dağlıq Qarabağ problemi və nəhayət sonuncusu Avropa İttifaqına inteqrasiya etməsidir.

Təbii resurslar, o cümlədən neft faktoru dünyanın aparıcı ölkələrinin Azərbaycana maraq və diqqət göstərmələrinin əsas səbəb kimi izah olunur. Lakin digər tərəfdən, Xəzər hövzəsinin neft ehtiyatları və Bakı üzərində nəzarət üstündə rəqabət Azərbaycan dövlətinin daxili və xarici siyasi

mövqeyinin sabitliyi prosesinə mənfi təsirini göstərir. Lakin Azərbaycan hökumətinin apardığı uğurlu siyasət Azərbaycanı belə bir vəziyyətdə toxunulmaz saxlamağa imkan verir.

Məlum olduğu kimi, Dağlıq Qarabağ məsələsi Azərbaycan üçün taleyüklü bir məsələdir və buna görə də Azərbaycan hər hansı bir dövlətlə əlaqə qurarkən və ya hər hansı bir təşkilatla üzv olarkən prioritet məsələ kimi Qarabağ məsələsini irəli sürür.

Azərbaycan QDİƏT-in əsasını qoymuş ölkələrdən biri olmasına baxmayaraq təşkilatın işinə tam fəallığı ilə inteqrasiya edə bilmirdi. Azərbaycanda atəşkəsdən sonrakı dövrdə mövcud siyasi-iqtisadi situasiya ölkəyə beynəlxalq təşkilatlarla hərtərəfli diplomatik əlaqələr qurmağa və inkişaf etdirməyə imkan vermirdi. Bu nöqteyi nəzərdən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin QDİƏT-in iclasında ilk iştirakının 25 oktyabr 1996-cı ildə baş verməsi həqiqətdə onun göstəricisi idi, müharibə üzündən Azərbvaycanın bu təşkilata inteqrasiyası ləngiyirdi. Ilk dəfə olaraq QDİƏT-in üzv-ölkə başçılarının işinə qoşulmuş Heydər Əliyev öz nitqində təşkilatın perspektivləri və onun regionda oynaya biləcəyi rolundan danışdı. Sammitin nəticələrinə uyğun olaraq, QDİƏT-in yeni inkişaf perspektivlərini müəyyən edən Moskva bəyannaməsi imzalandı.

Prezident Heydər Əliyevin QDİƏT-in işində növbəti iştirakı 1997-ci ilin 28 aprel tarixində təsadüf edir. Təşkilatın üzv-ölkələrinin İstanbulda "Qara dəniz regionunda yeni imkanlar" mövzusunda keçirilən biznes-konfrans çərçivəsində Heydər Əliyev Ukrayna, Türkiyə, Ermənistan, Rumıniya, Moldova və Gürcüstanın dövlət başçıları ilə görülmüş və müzakirə aparılmışdı.

Heydər Əliyev QDİƏT üzv ölkə başçılarının 4-5 iyun 1998-ci il tarixində Yaltada keçirilmiş növbəti iclasında da iştirak etdi. Heydər Əliyev QDİƏT üzv ölkə başçılarının 4-5 iyun 1998-ci il tarixində Yaltada keçirilmiş növbəti iclasında da iştirak etdi. 5 iyun tarixində Heydər Əliyev dövlət və hökumət başçılarının 4-cü sammitində çıxış etdi. Öz nitqində Heydər Əliyev QDİƏT çərçivəsində mövcud əməkdaşlığın perspektivlərindən danışdı və mümkün əməkdaşlıq sferalarını qeyd etdi. Bundan əlavə Heydər Əliyev QDİƏT-in üzv ölkə başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etdi. Sammitin nəticəsinə uyğun olaraq Yalta bəyannaməsi imzalandı.

17 noyabr 1996-cu il tarixində Heydər Əliyev QDİƏT-in tarixə düşmüş İstanbul görüşündə iştirak etdi. Bu görüşlərin nəticəsi kimi müzakirə

predmeti QDİƏT çərçivəsində əməkdaşlıq layihələri, təşkilati məsələlər, regional proseslər və iqtisadi əməkdaşlıq məsələləri olmuşdur.

Heydər Əliyevin iştirak etdiyi QDİƏT-in üzv ölkələrinin sonuncu sammiti 24-28 iyun 2002-ci il tarixində keçirilmişdir. QDİƏT-in 10 illik yubileyi münasibətilə Türkiyə keçirilmiş sammit çərçivəsində Heydər Əliyev Gürcüstan, Türkiyə, Rumıniya və Ukraynanın Prezidentləri ilə görüşmüşdür. Sammit görüşləri çərçivəsində Heydər Əliyev Azərbaycanın QDİƏT-in digər üzv ölkələri ilə əməkdaşlığını müzakirə etdi. QDİƏT-in sammitlərində Heydər Əliyevin iştirakı ilə yanaşı təşkilat çərçivəsində görüşlərdə Azərbaycanın xarici işlər naziri və müxtəlif çinli məmurlar da iştirak edirdilər.

QDİƏT çərçivəsində ikitərəfli əlaqələrin qurulma prosesini və təşkilata daha sıx inteqrasiya prosesini uğurla Prezident İlham Əliyev davam etdirdi.

QDİƏT diqqətini siyasi deyil, iqtisadi məsələlərdə cəmləşdirəcəyini elan etsə də, strukturun bəzi üzv ölkələri arasında siyasi problemlər iqtisadi layihələrin həyata keçirilməsini mümkünsüz etmişdi. QDİƏT-in üzv ölkələrinin ikitərəfli qaydada bir-biri ilə iqtisadi əlaqələrinin genişləndirilməsi və bu strukturu cəlb etmədən birgə iqtisadi layihələrin reallaşdırılması fatiki olaraq təşkilatın iqtisadi funksiyasını zəiflətdi.

Məhz bütün bu amillər müəyyən dərəcədə Azərbaycan və QDİƏT arasında əlaqələrin aşağı templə inkişafını şərtləndirirdi. Adətən Azərbaycan QDİƏT arasında əlaqələrin inkişaf tarixini şərti olaraq iki mərhələyə bölmək olar: 1992-2003 və 2003-2013-cü illər. Birinci mərhələdə, QDİƏT-in yenicə formalaşması ilə əlaqədar olaraq bu strukturun Azərbaycanla əlaqələri əsas etibarilə məşvərət xarakteri daşıyırdı. Lakin 2003-cü ildən başlayaraq münasibətlər konkret formalarda əməkdaşlığın inkişafı ilə xarakterizə olunur.

QDİƏT çərçivəsində Azərbaycanın diplomatik taktikası da bu tarixi dövrlərin xüsusiyyətləri nəzərə alınmaqla qurulurdu. 1992-2003-cü illərdə Azərbaycan QDİƏT-i iqtisadi əməkdaşlığı reallaşdırmaqla yanaşı, həm də Qarabağ münaqişəsi haqqında həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədilə siyasi platforma kimi istifadə edirdi. QDİƏT-in maliyyə mexanizmləri, strukturunun yenicə formalaşdığı dövrdə bu strukturdan siyasi təbliğat məqsədləri ilə istifadə etmək kifayət qədər düzgün siyasət idi.

QDİƏT çərçivəsində təbliğat fəaliyyətini aparmaqla yanaşı, Azərbaycan enerji daşıyıcıları, nəqliyyat, təhsil, terrorizmlə mübarizə və başqa sahələrdə əməkdaşlıq qura bildi. Bir sözlə, Azərbaycan QDİƏT-lə əməkdaşlıqdan istifadə edərək müstəqil siyasi fəal kimi beynəlxalq

münasibətlər çərçivəsində daha geniş əlaqələr qura bildi və daha aktiv fəaliyyət göstərə bildi.[1]

Azərbaycan ilk dəfə olaraq, 2003-cü ilin may ayında 6 ay müddətinə QDİƏT-də sədrliyi öz üzərinə götürmüşdür. Dövlətimizin QDİƏT-də iştirakının yuxarıda qeyd edilən məqsədlərini həyata keçirmək üçün 2003-cü ildə uğurlu və təşkilat çərçivəsində fəal sədrlik proqramı tərtib edilmiş və reallaşdırılmışdır. Belə ki, Respublikamızın müqayisəli üstünlüklərə malik olduğu enerji, nəqliyyat, turizm kimi sahələr üzrə nazirlər səviyyəsində Bakıda toplantılar təşkil edilmiş və ekspertlər səviyyəsində bir sıra iclaslar keçirilmişdir. Tədbirlər həm mahiyyət, həm də təşkilatı baxımdan yüksək səviyyədə keçirilmişdir. Sədrlik müddətində təşkil olunmuş enerji və nəqliyyat nazirlər toplantısının nəticəsi olaraq, müvafiq sahələrdə əməkdaşlığın inkişafına yönəlmiş Bakı bəyanatları qəbul edilmişdir.

2003-cü ilin oktyabrında Azərbaycanın QDİƏT-də sədrlik müddəti bitsədə,həmin ildə ikinci dəfədə sədrliyi öz üzərinə götürmüşdür (2003-cü ilin oktyabrı 2004-cü ilin apreli). İkinci sədrlik müddətində də, Azərbaycan bir sıra əhəmiyyətli tədbirlərin keçirilməsinin təşəbbüskarı olmuşdur. Bunun nümunə kimi, 2004-cü ilin 15-16 aprel tarixində Bakıda QDİƏT-in Təhsil Nazirlərinin iclasının (15-16 aprel 2004) keçirilməsini göstərmək olar. 2004-cü ilin 30 aprel tarixində keçirilmiş Xarici İşlər Nazirlərinin 10-ci iclası da yüksək səviyyədə təşkil edilmişdir. Tədbir zamanı, QDİƏT Daimi Beynəlxalq katibliyinin baş katibinin müavini vəzifəsinə seçkilər keçirilmişdir. Azərbaycanın namizədi Altay Əfəndiyev (XİN-in İqtisadi Əməkdaşlıq və İnkişaf İdarəsinin keçmiş rəisi) üzv-dövlətlərin əksəriyyətinin dəstəyini qazanaraq bu vəzifəyə seçilmişdir [2].

Azərbaycanın dövlət mənafelərini nəzərə alaraq, QDİƏT-də islahatlar prosesinin həyata keçirilməsinə və ədalətli rotasiya prinsipinə riayət edilməsinə nail olmaq üçün 2009-2012-ci illər üzrə QDİƏT Baş katibi vəzifəsinə 2009-cu ildə keçiriləcək seçkilərdə Azərbaycan Altay Əfəndiyevin namizədliyini irəli sürmüşdür.

Azərbaycanın sədrliyi dövründə QDİƏT tarixində ilk dəfə olaraq, yeni dövlət-Serbiya və Çernoqoriya təşkilata üzv qəbul olunmuşdur. Serbiya və Çernoqoriya tərəfindən QDİƏT-in Əsasnaməsinin 2004-cü ilin aprelində ratifikasiya edilməsilə QDİƏT üzv-dövlətlərinin sayı 12-yə çatmışdır.

---

[1]Black Sea Regional Strategy (2009-2013), Athens, 30 january 2009 (bsec-orqani zation.orq – rəsmi sayt).

[2] Azəbaycan İqtisadi İnkişaf Nazirliyinin cari arxivinin materialları.2000-2013.

Çernoqoriyanın müstəqil dövlət statusu almasından sonra hazırda yalnız Serbiya QDİƏT-in üzvüdür.

Azərbaycan QDİƏT-də sədrliyi təhvil aldığı zaman, təşkilatın inkişafı üçün vacib olan və təcili həlli tələb olunan bir sıra məsələləri gündəmə gətirmişdir.

Azərbaycanın sədrliyi dövründə Qara dəniz regionunda ticarətin asanlaşdırılması məsələsinə xüsusi önəm vermişdir. Belə ki, bu məqsədlə regionda iş adamları və peşəkar sürücülər üçün viza prosedurlarının asanlaşdırılması üzrə iki saziş layihəsi, qeyri tarif maneələrinin aradan qaldırılması kimi məsələlər QDİƏT-in müxtəlif işçi qruplarında müzakirə edilmişdir. Bu məsələ ilə əlaqədar, xüsusi olaraq, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının dəstəyi (FAO) ilə QDİƏT çərçivəsində həyat keçirilmiş layihə qeyd olunmalıdır. Layihənin nəticəsi kimi, regionda ticarətin asanlaşdırılmasına yönəldilmiş tövsiyələr hazırlanmış və üzv-dövlətlərə təqdim edilmişdir. Azərbaycanın sədrliyi dövründə FAO ilə digər-Qafqazda arçılığın inkişaf etdirilməsi üzrə layihənin təməli qoyulmuşdur. Azərbaycan bu layihədə iştirak etmək üçün etmişdir. Regionda kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi və dövlətlərin bu işdə rolunu və töhfəsini müzakirə etmək məqsədilə, Azərbaycan tərəfinin təşəbbüsü ilə bir sıra iclaslar-QDİƏT-in kiçik və orta müəssisələr üzrə işçi qrupunun iclası və seminarlar təşkil edilmişdir.

QDİƏT-in layihə inkişaf fondunun (PDF) yaradılması QDİƏT-in ən vacib nailiyyətlərindən biridir. Fond regional əməkdaşlığı təşviq edəcək layihələrin ilkin maliyyələşdirilməsi üçün üzv-dövlətlərin könüllü ianələri (30 min ABŞ dolları) əsasında yaradılmışdır. Azərbaycan sözügedən fondun 2004-cü ildə təsis edilməsində fəal iştirak etmiş, fondun fəaliyyətinə ölkəmizin sədrliyi dövründə təkan verilmiş və fonda könüllü ianə köçürülmüşdür. Sədrlik müddətində Azərbaycan ilə yanaşı, Yunanıstan, Rumıniya, Rusiya və Türkiyə fonda öz könülü ianələrini köçürmüşlər (sonradan Bolqarıstan və Gürcüstan da öz töhfəsini vermiş, Moldova da eyni addımı atmaq üçün öz razılığını bildirmişdir). Sədrlik dövründə fondun icraedici komitəsi öz ilk və daha sonra iki iclasını keçirmişdi. Eyni zamanda QDİƏT-in işçi qrupları da layihələrin hazırlanması istiqamətində fəaliyyətə başlamışlar.

Qara dəniz regionunun xüsusiyyətlərindən birinin Azərbaycanın coğrafi mövqeyi və karbohidrogen ehtiyatlarının zənginliyi ilə əlaqədar olduğunu nəzərə alaraq, bölgənin bu strateji üstünlüyünü həm Azərbaycan, həm də ümumregion maraqları naminə inkişaf etdirmək məqsədilə, respublikamız QDİƏT-in enerji və nəqliyyat üzrə işçi qruplarında iki il müddətində

əlaqələndiriciliyi həyata keçirilmişdir. Azərbaycan QDİƏT-in enerji üzrə işçi qrupunda ardıcıl olaraq iki dəfə əlaqələndiricilik funksiyasını daşımışdır (2002-2004 və 2005-2007).

Yaxın müddətdə, Azərbaycan Qara Dəniz Ticarət və İnkişaf Bankında (QDTİB) payını artırmı., bununla yanaşı, QDTİB Azərbaycanda bank sektorunun inkişafı istiqamətində kreditlər ayırmışdır.

QDİƏT-in başqa regional inteqrasiya qruplaşmalarından prinsipial fərqlərindən biri ondan ibarətdir ki, bu təşkilat başqa institusional cəhətdən güclü inkişaf etmiş beynəlxalq strukturlara cəlb edilən ölkələri birləşdirir. Məsələn, Avroittifaq, NATO Qara dəniz iqtisadi əməkdaşlıq təşkilatının üzvləri olan bir çox ölkələrin üzvü olmağa çalışdığı təşkilatlardır. Yunanıstan 1 may 2004-cü il tarixindən artıq Avropa İttifaqının üzvüdür. Buna görə də QDİƏT inteqrasiyanın yalnız iqtisadi aspektinə diqqətini yönəltdi və diqqətini və resurslarını siyasi və müdafiə sferalarından yayındırdı. Bu xüsusilə onunla bağlıdır ki, bu təşkilata daxil olan bir sıra ölkələrin qarşılıqlı ərazi iddiaları mövcuddur. Lakin iqtisadi maraqlar, Qara dəniz birliyi bu dövlətlərin münasibətlərinə müsbət təsir göstərir. Digər subregional qruplaşmalarla müqayisədə QDİƏT-in başqa bir xüsusiyyəti ondan ibarətdir ki, onlardan fərqli olaraq, artıq təşkilatın yaradılması haqqında Bəyannamədə gələcək fəaliyyətin əsasını ticarət deyil, istehsalat əməkdaşlığı müəyyən edilmişdi. Bu regionun ümumi iqtisadi problemlərinin həllinə ixtisaslı yanaşmada öz əksini tapmışdı.[1]

Dissertasiyanın "**QDİƏT kontekstində dövlətlərarası və təşkilatlararası münasibətlər**" adlanan üçüncü fəsli üç yarımfəsildən ibarətdir. Üçüncü fəslin birinci yarımfəsli "**QDİƏT azad ticarət zonasının yaradılması konsepsiyası**"adlanır və buradaQDİƏT azad ticarət zonasının yaradılması konsepsiyası ilə bağlı məsələlər araşdırılır.

QDİƏT-nin əksər iştirakçı-ölkələrində baş verən iqtisadi transformasiya prosesləri onların xarici ticarət dövriyyəsinin həcmində yüksək dərəcədə özünü göstərirdi. 80-ci illərin ikinci yarısında keçmiş qarşılıqlı iqtisadi əməkdaşlıq şurası və 90-cı illərin əvvəllərində keçmiş SSRİ-nin ölkələrində müşahidə olunan kəskin tənəzzül dövründən sonra xarici ticarətin sürətli bərpa dövrü başladı.

Qara dəniz regionu ölkələrinin qarşılıqlı ticarət partnyorları qismində əhəmiyyəti ilk növbədə dövlətlərin ümumi ticarət dövriyyəsinin və

---

[1] Язькова А., Куприянов Б., Черноморский узел. Федеральный информационно аналитический журнал. Сепаратор» htttp//senat.org/integ4/txt8.htm).

regiondaxili səviyyədə dövriyyənin həcminin dəyişmə korelyasiya ölçüsü ilə müəyyən edilir.[1]

Üçüncü fəslin "**QDİƏT çərçivəsində dövlətlərarası əməkdaşlığın əsas istiqamətləri**" adlanan ikinci yarımfəsli təşkilat çərçivəsində dövlətlərarası əməkdaşlıq məsələləri araşdırılır.

QDİƏT iştirakçı-ölkələrin regional azad ticarət zonasının yaradılmasının ardıcıllığı, müddət və əsas vəzifələrinə müxtəlif baxışları Yunanıstan, Türkiyə, Ukrayna və Ermənistan tərəfindən təqdim edilmiş fəaliyyətlər planının dörd layihəsinin işlənib hazırlanmasında özünü göstərdi. Bu layihələr, habelə Qara dəniz regionunda özünü ticarət dövriyyəsinin vəziyyətinin ilkin ətraflı araşdırılmasını zəruri hesab edən Rusiyanın mövqeyi ticarət və sənaye inkişafı üzrə işçi qrupu tərəfindən 1998-ci il 13-14 aprel tarixində İstanbulda nəzərdən keçirilmişdi.

QDİƏT iştirakçı-ölkələrinin xariciticarət fəaliyyətinin tənzimlənmə mexanizmləri və qanunvericilik normalarındakı fərqlər aradan qaldırılır ki,bu, xüsusilədaxili bazarın qorunması üçün tətbiq edilən mexanizmlərə aiddir. Bu, hər şeydən əvvəl dövlətlərin ticarət siyasətinin sadələşdirilməsi və şəffaflığını, onun beynəlxalq standartlara uyğun olmasını tələb edir.[2]

Üçüncü fəslin üçüncü yarımfəsli "**QDİƏT-nin digər beynəlxalq təşkilatlarla münasibətləri**" adlanır və burada, adından da göründüyü kimi, QDİƏT-nin digər beynəlxalq təşkilatlarla münasibətləri öyrənilir.

QDİƏT əvvəlcədən digər regional qruplaşmalar və ilk növbədə Avropa qruplaşmaları ilə sıx qarışıqlı fəaliyyət göstərən Qara dəniz strukturu kimi düşünülmüşdü. 25 iyun 1992-ci il tarixli Bəyannamə qeyd edirdi ki, Qara dəniz hövzəsi dövlətlərinin başçıları QDİƏT-i yaradaraq Avropa İttifaqı məkanının formalaşdırılması prosesi çərçivəsində iqtisadi əməkdaşlığı inkişaf etdirmək fikrindədirlər.

20 iyun 1995-ci il tarixli Buxarestdə keçirilən yüksək səviyyədə görüşün iştirakçıları yekun bəyanatda iştirakçı-ölkələrin avropa iqtisadi prosesin inteqrasiya edilmiş bir hissəsi kimi Qara dəniz regionu çərçivəsində çoxtərəfli iqtisadi əməkdaşlığın stimullaşdırılması məqsədilə səyləri davam etdirmək və genişləndirməklə siyasi iradəsini təsdiq etdi ki, bu da həm onların, həm də ümumilikdə Avropa maraqlarına cavab verirdi.[3]

25 oktyabr 1996-cı il tarixli Moskva sammitinin Bəyannaməsi Qara dəniz regionu üçün yeni Avropada müvafiq yerin əməkdaşlıq və inteqrasi-

---

[1]Agreement Establishing the Black Sea Trade Development Bank – BSEC Handbook of Document, vol. 1, p.492-493.

[2]Циганков П.А., Международные отношения. Москва, 1996, с.85-86.

[3]Bucharest Statement, 30 June 1995. BSEC Handbook of Documents, vol. I, p.15.

yanın təmin edilməsi istiqamətində dövlət və hökumətlərin işləmək hazırlıqlarını ifadə etməklə yanaşı, Avropa ittifaqına daha sıx əlaqələrin inkişafı və qarşılıqlı əməkdaşlığın genişləndirilməsi üçün ümumi platformanı yaratmağa dəvət də öz əksini tapmışdır.[1]

QDİƏT və Avropa İttifaqı arasında praktik qarşılıqlı əməkdaşlığın başlanğıcı 1996-cı ilin sonuna təsadüf edir. Bu dövrdən başlayaraq Qaradəniz hövzəsində regional əməkdaşlıq konsepsiyasını və müəyyən dəstəkləmə vasitələrini hazırlamağı məqsəd kimi qarşısına qoyan Avropa Komissiyası tərəfindən tədqiqat obyektinə çevrilir.

QDİƏT-nin formalaşmasını müşahidə edən Avrokomissiya 1997-ci ilin əvvəlində QDİƏT-Avropa Birliyi münasibətlərində prioritetlərinin araşdırılmasını apardı. TACİS proqramı çərçivəsində QDİƏT regionunda (tədqiqat obyekti kimi Yunanıstan və Türkiyə istisna olmaqla QDİƏT iştirakçı-ölkələri çıxış edirdi) aşağıdakı istiqamətlər araşdırılmışdı: ticarət münasibətləri, birbaşa xarici sərmayələr, Qaradəniz regionu ölkələrinə Avropa Birliyinin texniki və maliyyə yardımı və Avropa Birliyi ilə inteqrasiya strategiyasının təkmilləşdirilməsi üzrə təkliflər.

Tədqiqatlar göstərdi ki, QDİƏT hal-hazırda Avropa Birliyinin ticari partnyoru deyil. Avropa Birliyinin ümumi ixracatında QDİƏT iştirakçı-ölkələrin payı 4,5 faiz, idxalatda isə 6,7 faiz təşkil edir.[2]

Avrokomissiyanın məqsəd kimi qarşısına qoyduğu Avropa İttifaqı və QDİƏT arasında sıx əməkdaşlıq münasibətlərinə nail olma mövcud ikitərəfli müqavilələrin müddəalarının reallaşmasına əsaslanmalıdır: Bolqarıstan və Rumıniya ilə Avropa razılaşmaları, Azərbaycan, Gürcüstan, Moldova, Rusiya və Ukrayna ilə bağlanmış partnyorluq və əməkdaşlıq haqqında razılaşmalar, Türkiyə ilə Gömrük ittifaqına əsaslanan assosiasiya haqqında sazış.

Avropa Birliyinin mövqeyini nəzərə alaraq QDİƏT-in ticarət və iqtisadi inkişaf üzrə işçi qrupu Azad ticarət zonasının yaradılması üzrə fəaliyyətlər planının işlənilməsi çərçivəsində belə bir zamanın Avropa iqtisadi məkanıntərkib hissəsi kimi formalaşması ilə bilavasitə qarşılıqlı əlaqədə olan bir sıra məsələlərin həllini nəzərə almışdı.

---

[1]Moscow Declaration, Meeting of the Heads of State or Government of the Participating States of the Black Sea Economic Cooperation and the Eighth Meeting of the Ministers of Foreign Affairs of the BSEC Participation States, Moscow, 25 October 1996. BSEC Parlament international Secretarial, Istanbul, November 1996, p.2.

[2]Study on Priorities in Economic Relations between BSEC-EU Countries (Final Report – TACİS, March 1997, p. 4.

Ümumdünya ticarət təşkilatının tələblərinə uyğunluq nöqteyi-nəzərdən Azad ticarət zonasının yaradılması ilə əlaqəsi olan QDİƏT iştirakçı-ölkələrin müqavilə-hüquqi bazasının araşdırılması qərarı verildi.

Bundan əlavə QDİƏT iştirakçı-ölkələrin əlavə sazişləri normativ aktların yaradılması və onların Qaradəniz azad ticarət zonasının yaradılması şərtlərinə modifikasiyası məqsədilə bir sıra zəruri tədbirlərin görülməsi nəzərə alınmışdı.

Mütəşəkkil şəkildə iş azad ticarət zonasının yaradılması üzrə hazırlıq işlərinin keçirilməsi çərçivəsində konkret problemə baxmaq üçün səlahiyyətləndirilmiş xüsusi ekspert qruplarının yaradılması ilə təmin olunur. Bu qrupların işləminin nəticələri QDİƏT prosedur qaydalarına uyğun olaraq yuxarı vəzifələri şəxslər komitəsinin müzakirəsinə, onlar qəbul etdikdən sonra isə xarici işlər nazirləri şurasına təqdim olunması nəzərdə tutulur.

Regional əməkdaşlığın inkişafının təhlilindən məlum olur ki, yeni regional birliklərə daxil olan ölkələr ticarətin liberallaşmasına ticarət və investisiyanı tənzimləyən normativ – hüquqi bazanın uyğunlaşdırılmasına, xarici sərmayədarlar üçün əlverişli şərtlərin yaradılmasına can atırlar.

80-cı illərin sonu 90-cı illərin əvvəllərində nəzərə çarpan Şərqi Avropa ölkələrinin Avropa Birliyinə qoşulma tendensiyası sonralar reallaşmasını müxtəlif növ regional qruplaşma və ittifaqların təşkil olunmasında tapır. Bu qruplaşmaların üzvləri həm keçmiş sosialist düşərgəsindən olan ölkələr, həm də Avropa İttifaqın nümayəndə ölkələri olurdu.[1]

Ümumilikdə Avropada yeni regional birliklərdə baş verən proseslər əksər hallarda eynidir, mövcud bəzi xüsusiyyətlər isə əsas etibarilə coğrafi və siyasi səbəblərə bağlıdır. Bu birliklərin meydana gəlməsi əsas etibarilə siyasi təsəvvürlərə görə baş vermişdir; buna görə də onların iqtisadi fəaliyyəti o qədər də böyük deyildir.

Dissertasiyanın **Nəticə** hissəsində aparılan tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr aparılmış və əldə olunmuş nəticələr təhlil edilmişdir.

---

[1]Европейский Союз на пороге 21 века. Выбор стратегии развития. / Под.ред. Борко Ю.А. и Буториной О.В. Москва, 2001 г., с.152-153.

**Dissertasiya işinin əsas məzmunu müəllifin çap edilmiş elmi əsərlərində əksini tapmışdı:**

1.Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaranma tarixindən / Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransının materialları.19-20 dekabr, I c., Bakı, 2012, s.175-176.

2.Azərbaycanın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında fəaliyyətinin bəzi məsələləri/ Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları. 19-20 dekabr, II c., Bakı, 2013, s.271-273.

3.Müstəqil Azərbaycan Respublikasının yaranması yolunda çətinliklər və problemlər //Tarix və onun problemləri. Bakı, 2015, № I, s.170-175.

4.QDİƏT-in regionun iqtisadi inkişafında rolu // ADPU Xəbərləri. Bakı, 2015, № 1, s. 217-221.

5.The influense of energu resources of the Caucasus on the development of regional integration. International Journal of Multidisciplinary Research and Development.Volume II Issue 4 Part A, India 2015, p.698-701.

6.The international relations of Azerbaijan within the framework of the BSEC. Certificate of Publication International Multidisciplinary Research Journal. European Academic Research.Vol III, Issue Desember, Romania, 2015, p. 9580-9591.

7. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının strukturu // GDU. Elmi Xəbərlər. Gəncə, 2015, № 1, s.274-281.

8. QDİƏT cərcivəsində dövlətlərarası əməkdaşlığa təsir göstərən amillər // GDU Elmi Xəbərlər.Gəncə, 2016, № 2, s.191-196.

9.Qara dəniz regionunda əməkdaşlığın inkişaf konsepsiyasının əsas məqamları / GDU.Gənc alimlərin I beynəlxalq elmi konfrans materialları. I hissə. 17-18 oktyabr. Gəncə, 2016.

10.Qara dəniz İqtisadi Əməkdaşlığın inkişaf konsepsiyası. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2016, s. 214-220.

**Асадова Х.И.**

## Связи Азербайджана с Организацией Экономического Сотрудничества Причерноморья (2000-2013)

### РЕЗЮМЕ

Во введении обоснована актуальность выбора темы для исследования и ее научное значение, указана хронологическая рамка, комментируются базы источников и степень ее изученности. Были определены цель, конкретные задачи, методологическая основа исследования. Показана ее научная новизна, теоретическая и практическая значимость.

Первая глава «Из истории создания Организации Экономического Сотрудничества Причерноморья» включает четыре параграфа. В данной главе были рассмотрены вопросы: концепция развития сотрудничества в регионе Причерноморья, структура Организации Экономического Сотрудничества Причерноморья, факторы, влияющие на межгосударственное сотрудничество в рамках Организации Экономического Сотрудничества Причерноморья и ее роль в экономическом развитии региона.

Вторая глава «Роль Азербайджана в деятельности Организации Экономического Сотрудничества Причерноморья» состоит из двух параграфов. В данной главе анализируются вопросы: влияние энергетических ресурсов Кавказа на интеграционное развитие региона, международные связи Азербайджана в рамках Организации Экономического Сотрудничества.

Третья глава «Межгосударственные и межпроизводственные взаимоотношения в контексте Организации Экономического Сотрудничества Причерноморья» включает три параграфа. В данной главе описаны следующие вопросы: концепция создания независимой торговой зоны Организации Экономического Сотрудничества Причерноморья, основные направления межгосударственного сотрудничества в рамках организации производства, взаимоотношения Организации с международными организациями.

В заключении диссертации были подведены итоги исследованию, были обобщены результаты и обоснованы полученные выводы.

**Asadova Kh.I.**

## The relationships of the Azerbaijan Republic with the Organization of the Black Sea Economic Cooperation (2000-2013)

### SUMMARY

The actuality of the theme and its scientific importance were grounded, chronological frame was shown, the level of study of the problem and source base were interpreted, goals and objectives of the research were defined in the introduction part of the dissertation work.

The first chapter of the dissertation work which is called “The history of creation of the Organization of the Black Sea Economic Cooperation” consists of four subtitles. The issues such as the development concept of cooperation in the Black Sea region, the structure of the Organization of the Black Sea Economic Cooperation, the factors influencing interstate cooperation within the Organization of the Black Sea Economic Cooperation, the role of the Organization of the Black Sea Economic Cooperation in the economic development of the regionare investigated in this chapter.

The second chapter of the dissertation work which is called “The role of Azerbaijan in the activity of the Organization of the Black Sea Economic Cooperation” consists of two subtitles. The influence of the Caucasian energy resources to the development of regional integration, Azerbaijan’s international relations within the Organization of the Black Sea Economic Cooperationwere investigated in this chapter.

The third chapter of the dissertation work which is called “The interstate and interorganizational relations in the context of the Organization of the Black Sea Economic Cooperation” consists of three subtitles. The issues such as the creation of open trade zone concept of the Organization of the Black Sea Economic Cooperation, the major directions of interstate cooperation within the organization and the relations of this organization with other international organizations and etc. are investigated in this chapter.

In “Conclusion”, the author of the dissertation generalizes the main results of the research and the achieved results are analyzed.

*Kağız formatı 60x84 1/16, sayı 100*
*«Bakı Universiteti Nəşriyyatı». AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23*

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ХАНЫМ ИРАДИЛ кызы АСАДОВА**

# СВЯЗИ АЗЕРБАЙДЖАНА С ОРГАНИЗАЦИЕЙ ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА ПРИЧЕРНОМОРЬЯ (2000-2013)

Специальность: 5503.02 – Отечественная история

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ – 2018**